# SƏRDAR ƏSƏD XATİRƏSİNƏ MƏHƏBBƏTLƏ







*Rafael HÜSEYNOV,*
*akademik*

Yay tətillərindən sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - qeydiyyat nömrəli Dissertasiya şurasının sentyabr ayının 6-da ilk iclası keçirildi və Bakı Avrasiya Universitetinin "Ümumi filologiya" kafedrasının dissertantı Natella Zakir qızı Quliyevanın "Sərdar Əsədin yaradıcılığında şəxsiyyət, yaddaş və dünya konseptləri" mövzusunda 5716.01 – "Azərbaycan ədəbiyyatı" ixtisasında filologiya elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin müdafiəsi baş tutdu.









İddiaçının elmi rəhbəri filologiya elmləri doktoru, professor Seyfəddin Rzayev, rəsmi opponentləri Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, Türk odası və Türk araşdırmaları elmi-tədqiqat mərkəzinin rəhbəri, filologiya elmləri doktoru Elman Quliyev, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbi tənqid şöbəsi"nin müdiri, filologiya elmləri doktoru, professor Vaqif Yusifov, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Leyla Məmmədova idi.

Uğurla keçən müdafiədə mən də bəzi düşüncələrimi bölüşdüm.

İş ondadır ki, bir neçə il əvvəl indi müdafiəsi keçirilmiş Natella xanım mənim rəhbərlik etdiyim Elmi Tədqiqatları Əlaqələndirmə Şurasının iclasına tam ayrı bir mövzu ilə gəlmişdi.

Lakin mən çox işlənmiş həmin mövzudansa dissertasiyanın, yaradıcılığı az öyrənilmiş, amma haqqında dissertasiya və dissertasiyalar yazılmağa layiq olan başqa ədiblərimizə həsr edilməsinin məqsədəuyğunluğunu dedim və Sərdar Əsədi seçdik.











Sərdar Əsəd qısa önür yaşamış, amma ədəbiyyatımız tarixində silinməz izini qoymuş qələm sahiblərimizdəndir.

1969-cu ildə dostu və qələm qardaşı Əli Kərim həyatdan erkən ayrılanda Sərdar Əsəd qubarlı şeir yazmışdı:

Bəlkə heç getməmişəm,
Elə bəlkə burdayam?!
Sizin dincliyinizə
Ehmal-ehmal açdığım
Qapıları bərk döyün!
Getdi...
yaxın mənzilə.
Getdi...
yenə qayıdar

Müdafiə günü bir daha bu sətirləri yada saldım.

Çünki Sərdar Əsəd sanki bu sözləri elə öz haqqında söyləmişdi.

Sentyabrın 6-da o, gerçəkdən də qayıtmışdı, Nizami muzeyində, hamımızla birgə idi.

Amma onun Nizami muzeyinə bir başqa qayıdışı daha əvvəl başlanıb.

Övladlarından xahiş etmişdim ki, şairin arxivini muzeyə təhvil versinlər, onun ayrıca fondunu yaradaq.

Sağ olsunlar! Gətirdilər və artıq xeyli var ki, əməkdaşlarımız həmin arxivin fondlaşdırılması ilə məşğuldurlar, bu haqda ayrıca kitab da buraxacağıq.

Uğurla keçən müdafiə, adının və irsinin müstəqil elm faktına çevrilməsi əlbəttə ki, unudulmaz Sərdar Əsədin ruhunu şad etdi.

**2024**